**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

# M Ə L U M A T  M Ə K T U B U

**Hörmətli həmkarlar!**

Sizi 19-20 sentyabr 2024-cü il tarixlərində Sumqayıt Dövlət Universitetində keçiriləcək **"Əsrin müqaviləsi - Azərbaycan Respublikasının siyasi, sosial-iqtisadi, mədəni inkişaf strategiyasının təməli"** mövzusunda Beynəlxalq elmi konfransda iştirak etməyə dəvət edirik.

Konfransda Azərbaycan Respublikasının tarixində mühüm rol oynayan "Əsrin müqaviləsi"nin ölkəmizin siyasi, sosial-iqtisadi, mədəni və s. inkişaf sahələrinə təsir göstərən amillərinin tədqiqi, konfrans iştirakçıları tərəfindən əldə olunan elmi-tədqiqat nəticələrinin müzakirəsi və bununla bağlı geniş fikir mübadiləsi nəzərdə tutulur.

**Konfransın bölmələri:**

1. "Əsrin müqaviləsi" və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsi
2. "Əsrin müqaviləsi": Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı
3. "Əsrin müqaviləsi"nin Azərbaycanın beynəlxalq münasibətlərdəki mövqeyinə təsiri
4. "Əsrin müqaviləsi"nin Avropanın enerji təhlükəsizliyində rolu
5. Böyük dövlətlərin Azərbaycanda neft maraqları

**Konfransın işçi dilləri:** Azərbaycan, türk, rus, ingilis.

**Konfransın formatı:** əyani və ya onlayn – əlavə olaraq məlumat veriləcəkdir.

**Konfrans materiallarının tərtibinə qoyulan tələblər:**

| | |
|---|---|
| Kağızın ölçüsü | – *A4* |
| Boş sahə | – *hər tərəfdən 2 sm* |
| Şrift | – *Times New Roman* |
| Şrift ölçüsü | – *12 pt* |
| Sətirarası interval | – *1,15 sm* |
| Abzas | – *1,25 sm* |
| Məqalənin adı | – *ortadan, böyük hərflərlə, qalın şriftlə* |
| Müəllifin adı, soyadı, atasının adı | – *ortadan, qalın şriflə* |
| İş yeri, şəhər, ölkə | – *ortadan, kursivlə* |
| E-poçt ünvanı | – *ortadan, kursivlə* |
| Açar sözlər (5–7 söz) | – *Azərbaycan, ingilis, türk və rus dillərində* |

| | |
|---|---|
| Xülasə (60–80 söz) | *– məqalənin yazıldığı dildən başqa iki dildə* |
| Həcmi | *– 5 səhifəyə qədər* |
| Ədəbiyyata istinadlar | *– kvadrat mötərizədə* |
| Ədəbiyyat siyahısı | *–əlifba sırası ilə* |

Konfransın materialları **Plagiat.pl** şirkətinə məxsus **StrikePlagiarism.com** antiplagiat sistemində yoxlanıldıqdan sonra **"SDU.Konfrans materialları"** toplusunda dərc olunaraq, https://www.ssu-conferenceproceedings.edu.az, https://www.sdu.edu.az saytlarında və **eLibrary.ru** məlumat bazasında yerləşdiriləcəkdir (beynəlxalq seriya nömrələri: **İSSN 2708-955X print, İSSN 2709-6033 on-line**).

Materiallar **30 iyun 2024-cü il** tarixinədək **konfrans.tarix@sdu.edu.az** elektron poçtuna və ya əyani olaraq elektron daşıyıcılarda və çap olunmuş formada aşağıdakı ünvanda qəbul olunur: *AZ5008. Sumqayıt şəh., 43-cü məhəllə, Bakı küçəsi 1, Sumqayıt Dövlət Universiteti (I tədris korpusu), Tarix və coğrafiya fakültəsi, Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrası (otaq 248).*

**Bir müəllifdən yalnız bir məruzənin tezisi və ya məqaləsi qəbul olunur.**

**Təşkilat komitəsi tezislərin və məqalələrin konfransın proqramına daxil edilməsi hüququnu özündə saxlayır.**

**Məsul katib - prof. Şirxan Səlimov**

**Əlaqə telefonları:** *(+99418) 644 89 05, (+99455) 619 50 71*

***Təşkilat komitəsi***